# AZƏRBAYCAN | AZERBAİJAN

TIER 2

Beynəlxalq Dini Azadlıq üzrə ABŞ Komissiyası (USCIRF) bütün dünyada dini azadlığı monitorinq edən müstəqil, iki partiyanın dəstəklədiyi, ABŞ hökumətinin federal hökumət komissiyasıdır. 1998-ci ildə Beynəlxalq Dini Azadlıqlar Aktı (IRFA) ilə təsis olunmuş USCIRF dini azadlıqların və inancların xaricdə poluzlması ilə bağlı beynəlxalq standartlardan istifadə edərək Prezidentə, Dövlət Katibinə və Konqresə siyasətlə bağlı tövsiyələr verir. USCIRF ABŞ Dövlət Departamentindən ayrı və fərqli təşkilatdır. 2019-cu il üzrə İllik Məruzə yerlərdə pozuntuları sənədləşdirən və siyasət ilə bağlı ABŞ Hökumətinə müstəqil tövsiyələr verən Komissarlar və peşəkar heyət tərəfindən hazırlanmış bir illik işin kulminasiyasıdır. 2019-cu il üzrə İllik Məruzə 2018-ci ilin yanvar ayından 2018-cı ilin dekabr ayına qədər olan müddəti əhatə edir, hərçənd ki, bəzi hallarda bu zaman çərçivəsindən sonra baş vermiş əhəmiyyətli hadisələr də qeyd edilmişdir. USCIRF barədə ətraflı məlumat üçün, burada vebsaytı ziyarət edin və ya USCIRF ilə birbaşa 202-523-3240 nömrəsi vasitəsilə əlaqə saxlayın.

## Azərbaycan

**Əsas Tapıntılar:** 2018-ci ildə Azərbaycan hökuməti ABŞ və beynəlxalq icma ilə dini və inanc azadlıqları mövzularında müzakirələr aparmaq üçün bir sıra müsbət addımlar atsa da, dini azadlıq şəraiti önəmli ölçüdə yaxşılaşmayıb. Hökumət 2009-cu ilin Dini Azadlıqlar Haqqında qanununa, eləcə də inzibati və cinayət məcəllələrinə edilmiş müvafiq düzəlişlərə əsasən dini fəaliyyətlərə nəzarət etməyə davam edib. Bu qanunlara görə dini icmaların dövlət qeydiyyatından keçməsi tələb olunur və qeydiyyatdan keçməmiş bütün dini fəaliyyətlər qeyri-qanuni hesab edilir. Müsbət inkişafa nümunə olaraq, dörd qeyri-müsəlman dini cəmiyyət dövlət qeydiyyatına alınıb. Amma il ərzində yerli polis qüvvələri qeydiyyat tələblərinə və dini ədəbiyyatın hazırlanmasına, əldə olunmasına və yayılmasına qoyulmuş müxtəlif məhdudiyyətlərə riayət etməyən dini icmaları incitməyə, tutmağa, cərimələməyə və onlara qarşı reydlərə keçirməyə davam etmişdir. Bununla belə, bir icma polis tərəfindən daha az incidildiklərini bildirib. İl ərzində protestantlar, Yehova Şahidləri və bəzi müsəlman qruplar hədəf alınmış, müsəlman icmasının bəzi üzvləri ölkədə İran hökumətinin təsirini və dağıdıcı fəaliyyətini məhdudlaşdırmaq istəyən dövlət orqanları tərəfindən əlavə yoxlamaya məruz qalmışlar. 2018-ci ilin iyulunda Gəncənin icra hakiminə qarşı sui-qəsd cəhdinə və iki polis əməkdaşının öldürülməsinə görə "dini radikallar" məsul hesab edilib. Gəncədə nə baş verdiyini tam dəqiqliklə müəyyən etmək mümkün olmasa da, insan haqları fəalları siyasi müxalifləri sıxışdırmaq və İslami terrorçuluq qorxularını artırmaq üçün hökuməti müxtəlif hadisələrdən bəhanə kimi istifadə etməkdə günahlandırdılar. Qeyri-hökumət təşkilatları (QHT-lər) 68 vicdan məhbusu - bunlardan çoxu Müsəlman Birliyi Hərəkatının (MBH) üzvləridir - hələ də dini səbəblərlə Azərbaycanda məhbəs həyatı yaşadıqlarını bildiriblər. 2018-ci il ərzində, "sistemli və əhatəli" işgəncələrin davam etdirilməsi, xüsusilə MBH üzvlərinə qarşı belə işgəncələrin tətbiq olunması iddiaları irəli sürülüb.

Bu şərtlər əsasında 2019-cu ildə USCIRF Beynəlxalq Dini Azadlıq Aktı (IRFA) çərçivəsində “xüsusi narahatlıq doğuran ölkə” statusunun “sistemli, mütəmadi, bərbad” standartının ən azı birinə uyğun şəkildə dini azadlığı pozmasına və ya buna göz yummasına görə yenidən Azərbaycanı 2-ci Qrupa salır.

**ABŞ Hökumətinə Tövsiyələr**

- Azərbaycan hökuməti aşağıdakıları etməyə sövq edilsin:
    - Dini təşkilatlarla bağlı 2009-cu il qanununu Avropa Şurasının Venesiya Komissiyasının və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının 2012-ci il üzrə tövsiyələrinə uyğunlaşdırmaq üçün bu qanunvericilikdə islahatlar aparmağa vadar etmək;
    - Bütün dini icmalara—xüsusilə Bakıdan kənarda yerləşənlərə və qeyri-ənənəvi icmalara aid olanlara—qeydiyyat statusundan asılı olmayaraq, sərbəst şəkildə fəaliyyət göstərmələrinə icazə vermək; və
    - Vicdan məhbuslarının, xüsusilə inancına görə həbs olunanların azad olunmasını təmin etmək, tutulanların ailələri ilə görüşlərinin, eləcə də insan haqları monitorinqinin, yetərli tibbi qayğının, hüquqi məsləhətin və dini məkandan istifadənin əlçatan olmasını təmin etmək;

- ABŞ Beynəlxalq İnkişaf Agentliyinin və Azərbaycandakı ABŞ Səfirliyinin proqramında dini azadlığa dair qrant kateqoriyasını və fəaliyyət sahəsini müəyyən etmək və Demokratiyaya Milli Dəstək Fondunu tolerantlıq və din və inanc üzrə vətəndaş cəmiyyəti proqramlarına qrantlar verməyə həvəsləndirmək; və

- Radio Free Europe/Radio Liberty-nin Azərbaycan dilində buraxılışı olan Azadlıq Radiosuna və “Amerikanın Səsi”nin Azərbaycan dilində buraxılışına, dini azadlıq daxil olmaqla Azərbaycanın daxilində baş verən hadisələr barədə obyektiv məlumatın çatdırılmasını davam etdirmələri üçün ABŞ-ın kəsintisiz maliyyə dəstəyini təmin etmək.

**Ümumi məlumat**

| |
|---|
| **Azərbaycan**<br>**Tam adı:** Azərbaycan Respublikası<br>**Dövlət:** Prezident üsul idarəli Respublika<br>**Əhalisi:** 10046516<br>**Dövlətin tanıdğı dinlər/inanclar:** İslam (şiə və sünni), xristanlıq və yəhudilik<br>**Dini demoqrafiya*:**<br>96% müsəlman (65% şiə, 35% sünni)<br>4% digər (bəhailər, hare krişnalar, yehova şahidləıri, yəhudilər, protestantlar, roman katoliklər, rus provaslavlar və digərləri)<br>*Təxminlər ABŞ Dövlət Departamentindən götürülüb |

Azərbaycan konsitusiyası bütün dinlərin qanun qarşısında bərabər olmasını təsdiq edir, din və inanc azadlığını nəzərdə tutur və dini zəmində ayrı-seçkiliyi qadağan edir. Nəzəri olaraq, fərdi və ya qrup şəklində hər hansı dinə və ya dinsizliyə inancını bildirmək, eləcə də dini ideyaları yaymaq hüququ qanunla qorunur. Bununla belə, konstitusiyaya əsasən "insan şərəfini alçaldan dinlərin təbliğinin və yayılması", ictimai asayişi pozan və ya ictimaiyyətin mənəviyyatına "zidd" olan dini fəaliyyətlər qadağan olunur. Azərbaycanın 2009-cu il din haqqında qanunu, dini fəalliyyətlərə sərt şəkildə nəzarət edir: mürəkkəb qeydiyyat prosedurları tətbiq edilir; dini fəaliyyətlər ancaq qrupun qeydiyyatdan keçirdiyi ünvanla məhdudlaşır; dini ədəbiyyatın məzmunu, hazırlanması, idxalı, ixracı və paylanması və satışı məhdudlaşdırılır; dini liderlər üçün dövlətin təsdiq etdiyi dini təhsil tələb edilir. Din haqqında qanunu pozanlar böyük məbləğdə cəriməyə tabe tutula bilərlər. 2014-cü ildə Avropa İnsan Haqları Məhkəməsi (AİHM) müəyyən etmişdir ki, bu qanun, hakimiyyətə "qanunsuz" dini fəaliyyəti müəyyən etmək və məhkəmə təqibinə məruz qoymaq üçün "qeyri-məhdud ixtiyar" verir. Din haqqında qanuna 2015-ci ildə edilən dəyişikliklərə əsasən dini qruplar öz fəaliyyətləri barədə rəsmi sənədlər hazırlamalı və dini bayraq və şüar kimi dini ifadə vasitələrini yalnız ibadət yerləri ilə məhdudlaşdırmalıdırlar. Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi (DQİDK) dini fəaliyyətlərin tənzimlənməsi və onlara nəzarət edilməsinə görə məsuliyyət daşıyan dövlət təşkilatıdır. Qafqaz Müsəlmanları İdarəsi (QMİ) şiə və sünni müsəlmanların ayinlərini idarə edən inzibati qurumdur.

Azərbaycan əhalisinin təxminən 96 faizi müsəlmandır, bunların əksəriyyəti — təxminən 65 faizi şiə müsəlmandır. Yerdə qalan 35 faiz isə sünnidir. Azərbaycanın qeyri-müsəlman dini azlıqları əhalinin təxminən dörd faizini təşkil edir və Erməni Apostol, Bəhai, Gürcü Pravoslav, Hare Krişna, Yehova Şahidləri, Yəhudi, Protestant, Katolik, Rus Pravoslav və digər inancların nümayəndələrini ehtiva edir. Konstitusiyaya əsasən dövlət dünyəvi dövlətdir və heç bir dövlət dininə malik deyil.

2018-ci ildə Azərbaycan hökuməti sovet dövründən qalma, ölkədə insan haqlarına mənfi şəkildə təsir edən qanunlar və siyasətlərin məngənəsində qalıb. Əlavə olaraq, Azərbaycanın Rusiya və

İrana yaxın olması insan haqları və dini azadlıq göstəricilərini yaxşılaşdırmaq öhdəliklərini balanslaşdırmaqla yanaşı, onun həqiqi təhlükəsizlik problemlərini aradan qaldırmaq cəhdlərini də çətinləşdirir. Qismən buna görə 2018-ci ildə Azərbaycan hökuməti siyasi narazılığı ört-basdır etməyə və vətəndaş cəmiyyətini sıxışdırmağa davam etsə də ümumən insan haqları sahəsində elə də ciddi tərəqqiyə nail ola bilməyib. 2018-ci ilin aprel ayında 2003-cü ildən hakimiyyətdə olan prezident İlham Əliyev, müxalifət partiyalarının boykot etdiyi və beynəlxalq müşahidəçilərin "məhdudlaşdırıcı" adlandırdığı tələsik prezident seçkilərində dördüncü dəfə ardıcıl olaraq prezident seçilib.

2018-ci ildə Azərbaycan Birləşmiş Millətlər Təşkilatında (BMT) Universal Dövrü Baxışdan keçdi. Bir çox ölkələr icbari qeydiyyat tələbləri, qeyri-ənənəvi dini icmalara qoyulan məhdudiyyətlər və ümumən dini qrupların özəl və ictimai yerlərdə ayinləri icra etmə imkanı və inanclarına görə şəxslərin həbsə atılması və işgəncə verilməsi kimi hallara gözə Azərbaycanda dini azadlıq vəziyyətləri ilə bağlı öz narahatlıqlarını ifadə ediblər. Əlavə olaraq, vətəndaş cəmiyyəti təşkilatları Azərbaycanda dini azadlıq problemləri ilə bağlı bənzər məlumat və tövsiyələr təqdim ediblər.

## Dini Azadlıq Vəziyyətləri 2018

***Qeydiyyat Vasitəsilə Hökumət Nəzarəti*** 2009-cu ildə qəbul edilmiş qanun dini qrupların dini fəaliyyətlər həyata keçirməsi üçün hökumətdə qeydiyyatdan keçməsini tələb edir, amma hökumət iddia edir ki, qeydiyyatın olmaması məxfi ibadətə maneəçilik törətmir. Qeydiyyata alınmamış və dini əsaslarla qeydiyyatından imtina edilmiş dini qruplar "qeyri-qanuni" hesab olunur və polis reydləri, tutulma, həbslər və ya cərimələr ilə üzləşə bilərlər. DQİDK-a əsasən 877 müsəlman dini cəmiyyət və 32 qeyri-müsəlman dini cəmiyyət qeydiyyatdan keçirilib, 2250 məscid, 14 kilsə və yeddi sinaqoq ölkənin müxtəlif yerlərində fəaliyyət göstərir. Amma bəzi baptistlər və Yehova Şahidləri icmaları daxil olmaqla Azərbaycandakı dini azlıqlar DQİDK-də qeydiyyatdan keçə bilmirlər. Bəzi hökumət rəsmiləri kiçik dini azlıqlara nəzarət edə bilmək üçün tam vasitələrə malik olmadığını etiraf ediblər. Bəzi hallarda qeydiyyat ərizələrinə birbaşa imtina etmək yerinə, DQİDK ərizələrdə "texniki xətalar" tapmaqla prosesi qeyri-müəyyən müddətə ləngidir, ərizlərin yenidən təqdim olunmasını tələb edir və ya təqdim olunmuş ərizəyə cavab vermir. Məsələn, Yehova Şahidləri 2010-cu ildən Gəncə şəhərində qeydiyyatdan keçməyi arzulasalar da, sonuncu dəfə 2016-cı ilin may ayında təqdim etdikləri müraciətə hələ cavab ala bilməyiblər. Zaqatalanın Əliabad kəndinin baptistləri 1994-cü ildən bəri qeydiyyatdan keçməyi arzulasalar da, hələ qeydiyyata alınmayıblar. Belə deyilir ki, onlara hətta Milad bayramını qeyd etmək üçün də toplana bilməyəcəkləri deyilib. 2018-ci ildə dörd qeyri-müsəlman dini icma - "Yeni Apostl", "Vineyard Azərbaycan", "Bakıda Yehova Şahidləri" və "Gəncədə Yeddinci Gün Adventistləri"- qeydiyyata alınıb.

***Müstəqil Müsəlmanların Sıxışdırılması:*** Müsəlman icmaları Azərbaycanda qeyri-müsəlman dini qruplara şamil olunmayan əlavə hüquqi məhdudiyyətlər ilə üzləşirlər. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində qeydiyyat üçün müraciət edən müsəlman icmaların məscidlərinə ilk öncə QMİ tərəfindən icazə verilməlidir. QMİ həmçinin bütün imamların təyin olunmasına görə də məsuliyyət daşıyır. Hökumət rəsmiləri adətən müsəlmanlara qarşı daha sərt siyasətlərini İranın dəstəklədiyi dini ekstremizm və ölkədə iddia olunan terrorizm fəaliyyəti ilə mübarizə aparmaq ehtiyacı ilə əlaqələndirir. 2018-ci ilin sonuna doğru İranda təhsil almış şiə imam Sərdar Babayev xarici dini təhsil almış şəxslərin dini mərasimlər keçirməsini qadağan edən qanunu pozması ilə əlaqədar həbsdə qalmışdır. Babayevin 2017-ci ilin iyul ayında məhkum olunmasından az öncə yəni 2017-ci ilin may ayında qanuna düzəliş edilsə də və QMİ-ə dini mərasimləri aparmaları üçün bəzi xaricdə təhsil almış vətəndaşlara müstəsna hüquqlar verməyə icazə verilsə də, Ali Məhkəmə 2018-ci ilin fevral ayında onun müraciətini rədd edib.

“Forum 18”-in bildirdiyinə əsasən, ölkə həmçinin bütün müsəlmanları şiə müsəlman təqviminə riayət etməyə məcbur edir, sünni müsəlmanlar isə ibadət vaxtlarındakı fərqə və Ramazanda gün fərqlərinə görə bu tələbə riayət etmirlər. 2018-ci ilin sentyabr ayında şiələrin Aşura mərasimləri ərəfəsində hökumətin iştirakçılara özlərini vurmamaq, uşaqların mərasimlərdə iştirakına icazə verməmək və ya mərasimlərin məscidlərdən kənarda keçirilməməsi ilə bağlı xəbərdarlıq etdiyi bildirilir. Xəbər mənbələri bildirirlər ki, hökumətin təzyiqi ilə əlaqədar mərasimlərdə iştirak keçən il ilə müqayisədə daha azalıb və bayram zamanı məscidlərdə daha çox polis olub. Əlavə olaraq, Müsəlman Birliyi Hərəkatı (MBH) bir çox şübhəli ittihamlarla, o cümlədən terrorizm ittihamı ilə 10-20 il arası uzunmüddətli həbs cəzasını çəkməyə davam edirlər. Beynəlxalq insan haqları təşkilatları xüsusi MBH üzvlərinə qarşı ciddi işgəncə iddiaları irəli sürməyə davam etmiş və Avropa Şurasının 2018-ci il üzrə hesabatları həbsxanalarda "ümumi zorakılıq mədəniyyəti"nin olmasını qeyd edir. 2018-ci ilin fevral ayında MBH lideri və şiə müsəlman din xadimi Taleh Bağırov (həmçinin Bağırzadə soyadı ilə də tanınır) Quran mətninin və audio yazılarının olduğu microdiskləri əldə etmək iddiaları ilə əlavə beş ay həbs cəzası alıb.

***Dini Məhbuslar:*** 2018-ci idə üç QHT - Azərbaycanda Siyasi Məhbusların Qorunması Mərkəzi, Azərbaycanda Siyasi Məhbusların Birgə Siyahısı üzrə İşçi Qrup və Azərbaycanda Siyasi Məhbusların Azadlığı Birliyi siyasi məhbusların siyahısının hazırlanmasına davam ediblər. 2018-ci ilin ikinci yarısı üçün olan siyahılarda təxminən 130-150 siyasi məhbusun olduğu, bunlardan 68-nin dini inanclarına görə həbs olunduğu qeyd olunur. Dini məhbusların ümumi sayında əvvəlki il ilə müqayisədə azalma müşahidə olunsa da, bir çox məhbuslar öz cəzalarının tamamlanmasından sonra azadlığa buraxılıblar. Bir sıra məhbusların prezident tərəfindən əhv olunduğu bildirilir.

Məktəblərdə baş örtüsünə qadağa əleyhinə 2012-ci ilin oktyabr ayında keçirilmiş etiraz aksiyasında iştirak etdiyinə görə ilk olaraq altı il müddətinə həbsə məhkum edilmiş şiə müsəlman Telman Şirəliyev 2018-ci ilin dekabr ayında həbsdə olarkən daha altı ay həbs cəzasına məhkum

edilib. Azərbaycanın dövlət qurumları iddia edirlər ki, Şirəliyev bıçağı öz həbs kamerasında gizlədib, amma insan haqları fəalları bu ittihamı rədd edirlər. Azərbaycanda azadlığa buraxılması gözlənilən siyasi məhbusların bir çoxu ilə olduğu kimi, Şirəliyevin altı illik həbs müddətinin başa çatmasına cəmi bir neçə gün qalmış ona qarşı yeni ittiham irəli sürüldü. Hesabat dövründən sonra, Şirəliyevin həbsdən buraxıldığı bildirilir.

***Dini İbadət Yerlərinin Qapadılması:*** 2018-ci ildə hökumətin guya təmir üçün bağladığı məscidlər uzun illər boyunca qapalı qalmağa davam edib və bərpa işlərinin tamamlanması və ya məscidlərin yenidən açılması ilə bağlı heç bir rəsmi vaxt müəyyən edilməyib. Qapanmaların əleyhinə olanlar bu tədbirlərin hökumətin "radikal" hesab olunan müsəlmanların hədəfə götürmək cəhdinin bir hissəsi olduğuna inanırlar. İçərişəhərdə "Ləzgi Məscidi" kimi tanınan Aşur məscidi 2016-cı ilin iyul ayında bağlanıb. Yerli müsəlman icması təmirlərin bir bəhanə olduğunu və hökumətin icmanı dağıtmaqla bağlı cəhdinin bir hissəsi olduğunu bildirərək öz narahatlığını ifadə etmişdir. Hesabat dövrünün sonunda, məscid qapadılmış vəziyyətdə idi. İl boyu Bakı və digər rayonlarda qeyri-ənənəvi (məsələn onlardan birinin Nəqşbəndi sufi icması ilə əlaqəsinin olduğu deyilir) ev-məscidlərə DQİDK və polis tərəfindən reydlər keçirilmiş və onlar qapadılmışdır.

2018-ci ilin aprel ayında, Bakının Yasamal rayonunda Hacı Cavad Məscidinin yeni binasının tikintisi tamamlandı. Orijinal məscid 2017-ci ilin iyul ayında etirazlara baxmayaraq dağıdılmışdı. Məscidin açılması müsbət amil olsa da, bəziləri məscidin icmadan uzaq olması barədə şikayət etmişlər, çünki məscidin yeri təxminən 4-5 kilometr aralıya köçürülüb.

***Qeyri-müsəlman Dini İcmaların Statusu:*** Yəhudi icması Azərbaycanda uzun zamandır ki yaşayır və ümumi götürdükdə heç vaxt ayrı-seçkilik və təzyiq ilə üzləşməyib. Azərbaycan hökuməti ictimaiyyətə açıq şəkildə anti-semitizmin olmamasını və İsrail ilə yaxşı münasibətlərinin olduğunu vurğulasa da, rəsmilər anti-semitizm və islamafobia ilə bağlı narahatlıqlarını ifadə ediblər. Bununla belə digər "qeyri-ənənəvi" dini icmalar dövlət rəsmilərinin təzyiqinə məruz qalırlar. 2018-ci ilin yanvar ayında Gəncə şəhərində kilsə üzvünün evində təşkil edilən Şərqi Pentekostal Kilsəsinin Star dini mərasimlərinə qarşı reydlər keçirib. Polis evin sahibi olan kilsə üzvünü saxlayaraq ona kilsənin qeydiyyatdan keçmədiyini bildirmiş və uşaqlar daxil olmaqla, bütün iştirakçıların adlarını və şəxsi məlumatlarını qeyd etmişdir.

2018-ci ildə də Yehova Şahidləri tutulmuş və polis zorakılığına məruz qalmışlar. İl ərzində, bir sıra Yehova Şahidi öz inanclarını açıq və gizli şəkildə paylaşdıqları üçün tutulmuşdur. Əvvəlki illərdə olduğu kimi Yehova Şahidləri həbs olunmasa da və cərimələnməsə də, dövlət qurumları "qeyri-qanuni" dini toplantılar keçirərkən tutmaq cəhdi ilə Şahidlərin evlərinə qarşı reydlərə davam ediblər. Məsələn 2018-ci ilin yanvar ayında bir neçə ailənin iştirakı ilə sosial toplantı keçirən Yehova Şahidinin Lənkərandakı evinə reyd təşkil edilmişdir. 2018-ci ilin fevral ayında Qaxda məmurlar başqa bir Şahidi öz evində dini mərasimlər təşkil etməsinə görə ittiham edib və

hər hansı başqa şikayət aldıqlarında evində axtarış edəcəkləri ilə bağlı xəbərdarlıq ediblər. 2018-ci ilin iyul ayında, polis Sumqayıtda bir evdə keçirilən dini toplantıya müdaxilə edib.

Konstitusiyada alternativ hərbi xidmətin nəzərdə tutulmasına baxmayraq, Yehova Şahidləri hərbi xidmətə etiraz etmək haqqından mütəmadi olaraq məhrum edilmiş və hərbi xidmətdən yayınmağa görə təqibə məruz qalmışlar. 2018-ci ildə iki etirazçı Emil Mehdiyev və Vahid Əbilov iyul və sentyabr aylarında hər biri bir il müddətinə təxirə salınmış həbs cəzasına məhkum ediliblər. İl ərzində yerli dövlət qurumları tərəfindən üç əlavə iş məhkəməyə təqdim olunub; hesabat dövrünün sonuna olan məlumata görə bu məhkəmə işləri davam etməkdədir.

***Hökumətin Dini Materiallara Nəzarəti:*** Hökumət istehsal olunması və ya ölkəyə idxal olunması nəzərdə tutulan bütün növ dini ədəbiyyatın ilk öncə DQİDK-da təsdiq olunmasını tələb edir. Bənzər şəkildə, dini ədəbiyyatın satışı və paylanması yalnız əvvəlcədən təsdiq olunmuş dükanlar və ya məkanlarda həyata keçirilə bilər. Bildirildiyinə görə DQİDK, dini ədəbiyyatların cəmiyyətə mümkün təsiri, dini nifrət və ya qarşıdurmaya təsir edib-etməyəcəyi ilə bağlı bütün dini ədəbiyyatlar, ö cümlədən çap və elektron media barədə ekspert rəyi hazırlayır. Qadağan edilmiş ədəbiyyat və ya materialların rəsmi siyahısı mövcud olmasa da Yehova Şahidlərinin və türkiyəli kürd sünni din xadimi Səid Nursinin davamçılarının materialları əvvəllər müsadirə edilib. 2018-ci ilin fevral ayında Dövlət Komitəsi dinşünas Elşad Mirinin *"İslamda yoxdur"* adlı kitabını "dini sabitliyə mənfi təsir edə biləcəyi" qorxusu ilə qadağan edib. Bununla belə, müəllif bildirir ki, kitab rəsmilərin dini etirazlarına görə qadağan olunub.

2018-ci il ərzində dövlət qurumları icazəsiz dini ədəbiyyatın satılması və ya dövlət icazəsi olmadan təsdiqlənmiş dini ədəbiyyatın satılması ilə bağlı dükanlara reydlər təşkil ediblər. 2018-ci ilin mart ayında Dövlət Komitəsi kiçik şəhər olan Masallıda bir çox dükanlara reydlər təşkil edərək dini ədəbiyyatı müsadirə edib və dövlət icazəsi olmadan dini ədəbiyyatı satdığına görə orta aylıq əmək haqqının dörd misli miqdarında dükan sahibini cərimə edib. 2018-ci ilin aprel ayında Bakıda bir dükan sahibinin icazəsiz dini ədəbiyyatı satmağa görə bənzər cərimənin ləğvi ilə bağlı müraciətini məhkəmə təmin etməmişdir. 2018-ci il ərzində Şəki, Şirvan və Zaqatala kimi şəhərlərdə dövlət orqanları tərəfindən reydlər təşkil olunmuş, dini ədəbiyyat müsadirə olunmuş, cərimələr tətbiq olunmuşdur.

## ABŞ-ın siyasəti

Amerika Birləşmiş Ştatları və Azərbaycan əsasən terrorizmlə və transmilli təhlükələrlə mübarizə daxil olmaqla regional sabitlik, ikitərəfli iqtisadi əlaqələrin genişləndirilməsi və Avropanın enerji təhlükəsizliyinin gücləndirilməsi məsələləri ilə bağlı əməkdaşlıq edir. Amerika Birləşmiş Ştatları Dağlıq Qarabağ münaqişəsinin ABŞ, eləcə də Fransa və Rusiyanın həmsədrlik etdiyi Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk Qrupu çərçivəsində danışıqlar vasitəsilə, sülh yolu ilə həllinə çalışır. Amerika Birləşmiş Ştatları təhlükəsizliyə olan təhlükələrə

qarşı potensialın qurulması, iqtisadi inkişafın dəstəklənməsi və müstəqil qurumlar və vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi ilə bağlı Azərbaycana dəstək verir. ABŞ şirkətləri Azərbaycan ilə həm də dənizdə neft çıxarılmasında da əməkdaşlıq edir.

2018-ci ilin aprel ayında Prezident Əliyevin yenidən prezident seçilməsi münasibətilə ABŞ-ın ATƏT-dəki nümayəndə heyəti ATƏT-in bəyanatına bənzər şəkildə, prezident seçkilərinin məhdudlaşdırıcı siyasi mühitdə keçirildiyini, fundamental azadlıqlara məhdudiyyətlərin qoyulduğunu, əsl rəqabətin olmadığını və seçki qutularına kütləvi bülletenlərin doldurulması kimi pozuntuların olduğunu bildirən bəyanat yaydı. 2018-ci ilin oktyabrında ABŞ-ın Milli Təhlükəsizlik üzrə Məsləhətçisi Con R. Bolton Azərbaycana səfər edərək prezident Əliyevlə və xarici işlər naziri Elmar Məmmədyarovla görüşərək ikitərəfli münasibləri, İran daxil olmaqla regional məsələləri müzakirə ediblər. İctimaiyyətə açıq olan məlumatlarda dini azadlıq daxil olmaqla hər hansı insan haqları məsələlərinin müzakirə olunması qeyd olunmurdu.

Azərbaycanın 2018-ci il üzrə Universal Dövrü Baxışında Birləşmiş Ştatlar bu ölkədən "dərhal və qeyri-şərtsiz öz fundamental azadlıqlarından, o cümlədən ifadə azadlıqlığından, qruplaşma, toplanma və din azadlıqlarından istifadəyə görə həbs edilmiş bütün şəxslərin azad olunmasını tövsiyə etmişdir." Həmçinin ABŞ-ın Bakıdakı səfirliyi qeydiyyat tələbləri və ədəbiyyat məhdudiyyətləri ilə əlaqədar basqı göstərmək üçün Azərbaycanın dövlət rəsmiləri ilə mütəmadi görüşlər keçirib. Dini icmaların dini ayinlərinə qarşı hökumətin münasibətini müşahidə etmək üçün səfirlik əməkdaşları dini icmaların nümayəndələri ilə mütəmadi olaraq görüşürlər.

**Komissar Conni Murun şəxsi nəzər-nöqteyi:**

Mənim qiymətləndirməmə əsasən Azərbaycan bu siyahıda 2-ci qrupa salınmaq üçün lazım olan hədd daxilində deyil. Bir çox vətəndaşları üçün, bu ölkə *məhz* öz dini tolerantlığına görə tanınan bir ölkədir. Bu ölkə sünni və şiə din xadimlərinin birgə ibadət edə bildiyi, Evangel və rus pravoslav xristianların birgə dini mərasimdə iştirak edə bildiyi, əhalisi demək olar ki, tamamilə müsəlmanlardan ibarət olmasına baxmayaraq tərəqqi edən yerli yəhudi icmasının olduğu bir ölkədir. Əhalisinin əksəriyyəti tamamilə müsəlmanlardan olan bu ölkə məşhur hindu liderləri qəbul edib, şiələrin çoxluq təşkil etdiyi İran ilə qonşu olan bu ölkə sülhsevər siyasəti səbəbi ilə İsrail dövləti ilə yaxın münasibətlər qurub. Azərbaycanda həqiqətən narahatlıqlar qalsa da, qanun və siyasətlə bağlı bəzi problemlər mövcud olsa da, fikrimcə hökumət irəliləyiş edir və dini azadlıq icmalarının üzvlərinin müraciətlərinə xoş reaksiya göstərir. Həmçinin ölkənin yerləşdiyi coğrafi mövqeyi nəzərə alsaq, dini azadlıq icması hökumətin zorakı dini ekstremizm və milli təhlükəsizlik ilə bağlı narahatlıqlarını başa düşəcək qədər müdrik olmalıdır. Yekunda və ən vacibi, dünyanın müxtəlif dini liderlərinin Azərbaycan və Ermənistan hökumətlərini öz uşaqları naminə sülhə çalışmaq və aralarında olan narahatlıqları və ədalətsizlikləri aradan qaldırmaq üçün ciddi şəkildə çalışmaq çağırışına qoşuluram. Qılıncların əkin alətləri ilə əvəz olunması mümkündür və bunun üçün vaxt yetişib.